Mayın 29-da Təhsil Nazirliyində Türkiyə Respublikası Yüksək Öyrətim Kurulunun ( YÖK) nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə Azərbaycan-Türkiyə əlaqələrindən danışan Misir Mərdanov son illər bu istiqamətdə yüksək addımlar atıldığını diqqətə çatdırıb. Nazir həmçinin diplomların tanınması, zəruri ixtisaslara tələbatın ödənilməsi, ali təhsildə proqramların uyğunlaşdırılmasından da söz açıb, xüsusilə, tibb, müəllim hazırlığı üzrə proqramların yaxınlığını irəli sürüb.

Sonra Misir Mərdanov türkiyəli müəllimlərin Azərbaycan universitetlərində çalışması imkanlarının araşdırılması məsələsinə də toxunub.

Səmimi qəbul üçün nazirə təşəkkürünü bildirən YÖK-ün səlahiyyətli nümayəndəsi, professor Ənvər Həsənoğlu ölkələrarası təhsil əlaqələrinin inkişafını xüsusi qeyd edib, bu istiqamətdə sistemli iş aparılmasının məqsədəuyğunluğunu vurğulayıb. Qonaq, eyni zamanda ölkəmizin bir neçə ali məktəblərində keçirdikləri görüşlərdən, tədris prosesi ilə tanışlıqdan söz açıb və mövcud vəziyyətdən razılığını bildirib.

Görüşdə iştirak edən digər qonaqlar Azərbaycan - Türkiyə təhsil əlaqələrinin daha da yaxınlaşması istiqamətində təkliflər irəli sürüblər.

Türkiyə Respublikasının ölkəmizdəki səfirliyinin təhsil üzrə nümayəndəsi Səlahəddin Dikmən görüşdə iştirak edib.